

**Hüseynbala MİRƏLƏMOV**

# Dəyər ölçüsü kimi

Həzrət Peyğəmbərimiz buyurur ki, əməllərin dəyəri onların nəticəsi ilə ölçülür. Bu mənada 85 illik yubileyi qeyd edilən AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun ötən zaman məsafəsində ədəbi-mədəni və elmi sahədəki uğurlu fəaliyyətinin nəticələri çox qürurvericidir. Böyük bir fəxarət hissilə qeyd etmək olar ki, bu tarixi və möhtəşəm elm məbədində çalışan görkəmli şəxsiyyətlər "qaranlıqları devirmək və aydınlıq bir çağın qapılarını açmaq üçün ən mükəmməl silah olan qələmdən" (Meriç) həmişə milli sərvətimiz olan söz xəzinəmizin təbliği, qorunması, incələnməsi baxımından ləyaqətlə istifadə ediblər.

İnsan zəkasının üç əsas açarı olan elm, təfəkkür və təxəyyül triadası Ədəbiyyat İnstitutunun bütün fəaliyyət dövrünün tədqiqat predmeti olub. Birmənalı olaraq qəbul edilib ki, elm həqiqətin inkişaf etdiyi canlı orqanizmdir. Bütün dönəmlərdə Ədəbiyyat İnstitutu məhz bir əsas, başlıca ideya uğrunda öz missiyasını səfərbər edib; Söz sənəti arzuları uğrunda apardığı çətin mübarizədə insana kömək edir, onun yanında olur, insanı (və cəmiyyəti) dirəniş göstərməyə sövq edir, sınıb-əyilməyə qoymur. Bu yöndən, birmənalı olaraq insanlığın tərbiyəçisi kimi yaradılan əsərlər həmişə Ədəbiyyat İnstitutunun diqqət mərkəzində olub, klassik və çağdaş söz sənətimizin dəyərli örnəkləri daha çox bu yöndən incələnib. Ən başlıca cəhət ondan ibarətdir ki, Ədəbiyyat İnstitutu öz şərəfli fəaliyyəti boyunca ədəbiyyatşünaslıq elmimizin problemlərinə dünyanın humanitar fikrindəki elmi-nəzəri məktəblər, konsepsiyalar müstəvisində nəzər salmağı bacarmış, fəaliyyətini bu yöndən qura bilmişdir. Ədəbiyyatşünaslıq elmimizin bu gün həm Avropa, həm də Şərq düşüncəsi kontekstində öyrənilməsi xüsusi razılıq hissi doğurur və İnstitut rəhbərliyi elmi-nəzəri araşdırmaların milli mədəni-mənəvi oriyentasiya məsələləri, ədəbi ideologiya və milli məfkurə kimi ciddi problemlərin qaldırılmasına xüsusi diqqət yetirir. Bu, təqdiredici bir missiyadır.

Ədəbiyyat qəzeti. - 2018.- 9 noyabr.- S.25.